POEZİYA

Şah İsmayıl Xətayinin müasiri - Qurbani

Qurbani Şah İsmayıl Xətayinin ölümünə bir neçə şeir həsr edib

I yazı

Şah İsmayıl Xətayinin müasiri, onun fəaliyyət göstərdiyi tarixi-ictimai-siyasi və ədəbi mühitdə yaşayan Qurban Mirzəlixan oğlu aşıq şeirini yeni mərhələyə qaldıran qüdrətli saz və söz ustası olub. Əsərləri vaxtında yazıya alınmadığından həyatı haqqında çox az məlumat var, ədəbi irsinin çoxu bizə gəlib çatmayıb. Ancaq bunlara baxmayaraq, həyatı haqqında məlumat almaq üçün əldə olan ən tutarlı mənbə haqqındakı rəvayət və dastanlar və onun dillər əzbəri olan lirik şeirləridir.

Məlumdur ki, Qurbani Şah İsmayıl Xətayinin ölümünə bir neçə şeir həsr edib. Onun «Ola» rədifli şeiri Şahın ölməsindən doğan kədəri əks etdirir. Şeirdən aydın olur ki, aşıq özü də bu dəfn mərasimində iştirak edib, dərin sarsıntı keçirib.

Fələk, sənlə vuruşmağa bir qabil meydan ola,
Tut əlimi, fürsət sənin, kaş belə ehsan ola.
Getmiş idim mürşüdümə, dərdimə dava qıla,
Mən nə bilim mən gəlincə xak ilə yeksan ola.
O Şahın kəlmeyi-kəlamın zikr etmək gərək,
Tabutu sərv ağacından, kəfəni yarpaq gərək,
Tez yuyun, tez götürün ki, məzara çatmaq gərək,
Bir-ilahım, necə qıydın bir belə cavan ölə.
Ey könlüm, geygilən qarayı, xandan eləmə,
Bir-ilahi, böyük xanədanı viran eləmə,
Haq-taaladan səda gəldi; Qurbani, çox qəm yemə,
Heç ola bilməz Xanədani-Şəfi viran ola.

Göründüyü kimi, Qurbani Şaha şikayətə getdiyi ərəfədə şah ölüb, aşıq da bundan kədərlənib, könlü qara geyib, ilahidən diləyib ki, Xanədani-Şəfi viran olmasın. Qurbani Şah İsmayılın ölümü haqqında maddeyi-tarixdə yazıb:

Əzabdan yüz üç keçəndə
Əcəl camın içdi şahım.
Bu dünyadan köçdü şahım.

«Əzab» deməklə şair Nəsiminin ölümünə işarə edir, çünki Şah İsmayılın «dünyadan köçdüyü» tarixdən 103 il çıxdıqda bu, Nəsiminin öldürülməsi ilinə müvafiq gəlir (M.H.Təhmasib).

Qurbaninin «Gərək» rədifli divanisində də tarixi faktlar var. O, şahın ölümündən sonra xanəndanda baş verən «şər'i», «rüşvət»i kəskin tənqid edərək «Pirim girib ol niqaba, getməyəydi cavan gərək...» - deyir. Şeirin sonunda isə belə bir misra işlədir: «Yaşı yetirdin əlliyə, indi üz tut yüzə sən». Deməli, Şah İsmayıl Xətai (1486-1524) vəfat ona mərsiyə yazan Qurbaninin 50 yaşı tamam olubmuş. Buradan aydın olur ki, Qurbani 1474-cü ildə anadan olub.

İsmim Qurbanidir, kəndim Diridi,
Qaradağdan Qarabağa gedirəm.

Beləliklə, məlum olur ki, Qaradağ mahalının Diri obasından olan (sonralar Qarabağ mahalına verilib) Qurbani Mirzəlixan oğlu yoxsullaşmış bəy ailəsində tərbiyə alıb, ərəb, fars dillərini öyrənib, zamanəsinin tələb etdiyi bəzi elmlərə yiyələnib, dini qanunlara, təriqətlərə bələd olub.

Qurbaninin yaşadığı XV əsrin son rübü, XVI əsrin əvvəlləri Azərbaycanda və ümumən Yaxın Şərqdə gedən aramsız müharibələr, siyasi mübarizələr, bu müharibə və mübarizələrdə başlıca rol oynayan təriqətlər, müxtəlif meylli ictimai-siyasi görüşlər, fəlsəfi cərəyanlar Azərbaycan xalqının ictimai və mədəni təkamülünə təsirsiz qalmırdı. Bir tərəfdən azərbaycandilli söz sənəti, milli bədii təfəkkür yüksək inkişaf edir, başqa tərəfdən, dini təriqətlər arasında gedən çarpışmalar qabaqcıl bəşəri ideyalara, azad düşüncələrə sədd çəkir, mane olurdu.

Dövrünün bəzi sənətkarları kimi, Qurbani də belə bir keşməkeşli dövrdə Azərbaycanın və Şərqin bir sıra mahal və şəhərlərini (Qarabağ, Rum, Qars, Təbriz, İsfahan, Gəncə. Bərdə və b.) gəzmiş, məclislərdə, məərasimlərdə olmuş, müxtəlif adamlarla rastlaşıb, Nəsiminin panteist görüşləri ilə səsləşən, çox müəmmalı və incə mətləblərə toxunan şeirlər oxuyub. «Qurbani əsatiri, xurafatı, dini ehkamları, əfsanələri, təriqət rumuzatını, şiə qanun-qaydalarını mükəmməl bilən şəxsiyyət» olub.

Qurbani ədəbi irsinin yazıya alınması hələlik XVIII əsrə təsadüf edir. «Cəbinin təcəlla, camalın günəş» misrası ilə başlayan şeiri 1775-ci ilə aid cüngə daxil edilib və bundan sonra XVIII, XIX və XX əsrin əvvəllərində tərtib edilmiş cünglərdə Qurbaninin şeirlərindən nümunələr verilib.

Qurbani haqqında ilk məqaləni S.Mümtaz yazıb. «El şairi Qurban» adlı həmin məqalədə S.Mümtaz Qurbaninin Şah İsmayıla həsr etdiyi məşhur «Mənim» rədifli şikayətnaməsinə, «Dedim-dedi», «Bənövşə» və başqa şeirlərinə əsaslanaraq həyatına dair mülahizələr söyləyib, Qurbaninin gerçəkdən də qüdrətli və kamil bir sənətkar olduğu qənaətinə gəlib. Akademik H.Araslı «Aşıq yaradıcılığı» əsərində Qurbaninin yaradıcılığından ayrıca bəhs edib, prof. M.H.Təhmasib isə «Azərbaycan xalq dastanları» monoqrafiyasında aşığın yaradıcılığından, Qurbani dastanlarının ayrı-ayrı variantlarından ətraflı danışıb. Akademik M.İbrahimov «Aşıq yaradıcılığında realizm» əsərində, V.Vəliyev «Azərbaycan folkloru», P.Əfəndiyev «Azərbaycan şifahi xalq ədəbiyyatı, A.Nəbiyev «Azərbaycan xalq ədəbiyyatı» dərsliklərində Qurbani lirikasının mövzusundan və bədii xüsusiyyətlərindən bəhs ediblər. Müxtəlif illərdə S.Mümtaz («El şairləri» - 1927), S.Rüstəm və M.Rahim («Aşıqlar» - 1938), S.Axundov («Aşıqlar» - 1957, 1960), H.Arif, İ.Tapdıq, M.Həkimov və b. tərtib etdikləri kitablara Qurbaninin şeirlərindən də nümunələr daxil ediblər. Nəhayət, prof. A.Dadaşzadə Qurbaninin ilk dəfə 55 şeirini ayrıca toplu halında çap etdirib, kitaba yazdığı dəyərli ön sözdə aşığın şeirləri haqqında maraqlı mülahizələr söyləyib. Ə.Axundovun tərtib etdiyi ikicildlik «Azərbaycan aşıqları və el şairləri» kitabı da Qurbaninin şeirləri ilə açılır. Aşığın doğulduğu, yaşadığı yerin, nəslinin müəyyənləşdirilməsi sahəsində Q.Kazımov xeyli iş görüb, maraqlı nəticələr əldə edib.

Qurbani haqqında da yazılı mənbələr çox az məlumat verdiyinə görə onun tərcümeyi-halı haqqında əsas faktları şeirlərindən və haqqındakı dastandan almaq mümkündür. Araşdırmalar göstərir ki, Qurbani bir müddət Gəncə şəhərində də yaşayıb, Şeyx Nizaminin türbəsini ziyarət edib, Dədə Yediyar və Aşıq Heydərlə görüşüb qabaqlaşıb. İti hafizəsi və orta əsr elmlərinə, müxtəlif təriqət qanunlarına dərindən bələd olması ona burada böyük hörmət qazandırıb, saray hakimlərinin də diqqətini özünə cəlb edib. Bir müddət sonra aşıq "çuğul sözü ilə böhtana düşüb", Gəncə xanının vəziri tərəfindən həbs olunub, ölüm hökmünə məruz qalıb. «Çərxi-fələkdən, zamanədən, dövrün zülmündən» dönə-dönə şikayətlənən el şairi əsil səbəbkara - Gəncə vəzirinə qarğışlar yağdırır:

Vəzir, sənə qarğayıram,
Haqq diləyin yetirməsin,
Göydən min bir bəla ensə,
Birin səndən ötürməsin.

Oturubsan ağ otaqda,
Qan qusasan laxta-laxta,
Səni görüm ölən vaxtda,
Dilin kəlmə gətirməsin

Nəhayət, Qurbaniyə kəsilmiş ölüm hökmü sürgünlə əvəz edilir. El şairi Qarabağdan sürgün edilir, «qolubağlı Xudafərin körpüsündən keçirilir» və beləliklə, 11 il gəzərgi həyat keçirməli olur. Qurbaninin məramı Şah İsmayıl Xətainin yanına getmək, onunla görüşüb başına gələnləri ona danışaq olub. Bu məqsədlə də o, yollar arayıb, şahın adına şikayət tərzli şeirlər yazıb:

Farağat evimdə otduğum yerdə,
Oxuyub elmimə çatdığım yerdə,
Bir şirin yuxuda yatdığım yerdə,
Verdilər ömrümü bada, gəlmişəm.

Qurbani dönə-dönə şaha şeir yazıb görüşməyə cəhd göstərsə də, buna nail ola bilməyib. O, hətta Şıx oğlunun mehtərinə müraciət edib, bir müddət onun yanında qalmış və görüş üçün məqam gözləyib. Lakin şahın qəfil ölümü onun bu arzusunu ürəyində qoyub. Bu hadisədən kədərlənən Qurbani yuxarıda xatırladığımız məşhur divanisini söyləyib. On bir il sürgün həyatı keçirsə də, Qurbani heç vaxt ümidini üzməmiş, gələcəyə inam bəsləyib və bu inam onun şeirlərinə nikbin ruh gətirib:

Qəm yemə, qəm yemə, divanə könlüm,
Həmişə ruzigar belə dar olmaz.
On bir il çəkmişəm zimistan qəhrin,
O nə güldür çevrəsindən xar olmaz.

Qurbaninin tutulub sürgün edilməsinin səbəbi kimi üç ehtimal irəli sürmək mümkündür:

1. Qurbani Gəncə hakimlərinin birinin qızı ilə rastlaşıb, onu məclislərdə Pəri adı ilə vəsf edib, bu sevginin sorağı saraya çatıb, sarayın baş vəziri qəzəblənib Qurbaniyə ağır cəza tələb edib;

2. Qurbani çuğul-kəzzab sözü ilə bizə bəlli olmayan səbəbə görə baş vəzirin toruna düşüb sürgün edilib;

3. Nəsiminin sufi-hürufi görüşləri ilə səsləşən şeirlər oxuduğuna görə şəriət məddahları onu vəzirin əli ilə ağır cəzalandırmağı tələb ediblər.

Qurbaninin hər üç fərziyyəni doğrulda bilən kifayət qədər şeirləri var. Birinci ehtimal əsasında sonralar dastançı aşıqlar bir neçə variantda məhəbbət dastanı yaratmışlar ki, aşığın şeirlərinin əksəriyyətini bu süjetə uyğunlaşdırıblar. Aşığın xələfləri ikinci, üçüncü fərziyyəyə dair şeirləri məhəbbət motivinə uyğunlaşdırmağa çalışsalar da, bu şeirlərdə aşığın həyat yoluna dair ağlabatan dəlillərin yalnız izi qalıb.

Qurbaninin şeirlərində həm Nəsiminin poetik təfəkkürü, həm də ümumiyyətlə, orta əsr təriqət ədəbiyyatının əlamətləri xalq təfəkkürünə məxsus aydın şəkildə duyulur:

Laməkan şəhrindən gəldim cana mən,
Canlar əhli bir canana yetişdim,
Əldən-ələ, qabdan-qaba süzüldüm,
Qətrə idim, bir ümmana yetişdim.

Bir gözəlin ələyindən ələndim,
Bəli dedim, bəlasına bələndim,
Yeri, göyü yaradandan diləndim,
Gövləri axtardım, kana yetişdim.

Vücudnamə mündəricəli bu üç bəndlik şeirdən də görünür ki, aşıq sufi və hürufi təriqətlərinin humanist mahiyyətini dərk edib, hətta bu təriqətləri özünə «yol-ərkan» bilib. El şairinin vəsf etdiyi sevgi də, təbiətin rəngləri də, kainat, səma cisimləri də onun mənəvi dünyasında rəmzi məna daşıyır:

Rəmz anlayan, söz düşünən, dərd bilən,
Aləmlərdə şöhrətləni, bəlləni.

Qurbani ərəb əlifbası ilə bağlı təsvirdə rəmzi mənanı cinas qafiyələrlə ardıcıl və sistemli şəkildə ustalıqla canlandırır:

Əlif qəddin, bey qamətin, sey saçın,
Necə bənzər hərf içində bir dala.

Şairin təcnislərdə işlətdiyi ərəb-fars tərkibli cinaslardan məlum olur ki, o, bu dillərdən məharətlə istifadə edib.

M.H.Təhmasibin qeyd etdiyi kimi, Qurbaninin belə şeirlərini təsadüfi hesab etmək olmaz. Çünki orta əsr təriqət ədəbiyyatını, həmçinin sufi-hürufi ideyalarını və Nəsimi məsləkini bu dövrün nəinki Azərbaycan ozanları, hətta erməni qusanları da mənimsəyib geniş təbliğ edirdilər. Şah İsmayıl özü də sufi-hürufi təriqətinə qail olduğundan Qurbani ona böyük ümid bəsləyib, bu ümidlə də ona tez-tez müraciət edib:

Gəncə dağlarından, uzaq ellərdən,
Əlbəttə ki, bir murada gəlmişəm.
Zülmün sitəmindən, çərxin əlindən,
Bir şahım var, ona dada gəlmişəm.
...Qurbaniyəm, Qara Vəzir əlindən.

Şeyxoğluna şikayətə gəlmişəm.

Qurbaninin şeirlərində dövrün, ictimai quruluşun səciyyəsi aydın nəzərə çarpır. O, feodal mühitinin təzadlarını ustalıqla əks etdirirdi. Bu təzadları onun «Gülərmiş» rədifli qoşmasında da aydın görürük:

Baxgilən fələyin ruzigarına,
Əyyam xoş keçəndə dövran gülərmiş.
Bəhrəli çağlarda, məhsul ayında
Bağı bar verəndə bağban gülərmiş.

Qurbani, qəmlənmə, kərəm-kanı var,
Ədalət hakimin haq divanı var.
Bu çərxi-fələyin nərdibanı var,
Enən ağlayarmış, qalxan gülərmiş.

El şairi ictimai bərabərsizliyi, cəmiyyətdəki feodal təbəqələşməsini də sadə və aydın şəkildə ifadə edib.

Kimi ağa, kimi nökər,
Nökər olan cəfa çəkər.

Aşığın «Gülə-gülə» gəraylısında yüksək poetik ustalıq var. Aşıqların ifasında çox geniş yayılan və gözəl səslənən bu şeir böyük sadəlik, axıcılıq və emosionallığı ilə diqqəti cəlb edir. Zəhməti insanın mənəvi ucalığı hesab edən şair deyir:

Naşı bağban, satma gülü,
Haramdı axçası, pulu,
Küsdürdün şeyda bülbülü
Daha gəlməz gülə-gülə.

Qara Namazov
professor